UOT: 378.33: 001.895

*Leyla Fəxrəddin qızı ƏHMƏDOVA*
*Azərbaycan Kooperasiya*
*Universitetinin doktorantı*
**E-mail: leyla.ehmedova.aku@gmail.com**

# ELMİ-TƏDQİQAT MÜƏSSİSƏLƏRİNDƏ BİZNES PROSESLƏRİNİN İNVESTİSİYA CƏLBEDİCİLİYİNİN ARTIRILMASI MƏSƏLƏLƏRİ

*Xülasə*

**Tədqiqatın məqsədi** elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində biznes proseslərinin rolunun araşdırılmasından ibarətdir. Elmi-tədqiqat xidmətlərinin son məhsul kimi formalaşdırılması və brendləşdirilməsinin, fəal tətbiqinin vacibliyi bildirilmişdir. Qlobal dəyişikliklər şəraitində elmi-tədqiqat xidmətlərinin strukturunun təkmilləşdirilməsi məsələlərinə baxılmışdır.

**Tədqiqatın metodologiyası** – tədqiqat işində təhlil, sintez və ümumiləşdirmə metodlarından istifadəyə üstünlük verilmişdir və eyni zamanda, elmi-tədqiqat xidmətləri üzrə müxtəlif tədqiqatçıların əsərlərindəki yanaşmalar nəzərə alınmışdır.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində biznes proseslərinin rolunun artırılması üzrə tədbirlər kompleksinin işlənməsi və fəaliyyət strategiyasının hazırlanması üçün faydalı ola bilməsidir.

**Tədqiqatın nəticələri** – elmi-tədqiqat xidmətlərinin strukturunun genişləndirilməsi, bu istiqamətlərdə biznes proseslərinin rolunun yüksəldilməsi, alınmış elmi nəticələrin istehsala daha sistemli şəkildə tətbiq edilməsi üzrə tövsiyələr verilmiş və təkliflər hazırlanmışdır.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – elmi nəticələrin və kəşflərin kommersiyalaşdırılmasında biznes-proseslərin rolunun prioritetliyi ciddi arqumentlərlə əsaslandırılmış və mövcud problemlərə müasir baxışlar formalaşdırılmışdır. Elmi-tədqiqat nəticələrinin təyinatı üzrə istifadə olunmasının və tətbiqi proseslərinin tənzimlənməsi, bunlarla bağlı dəqiq fəaliyyət strategiyasının formalaşdırılmasının vacibliyi əsaslandırılmışdır.

***Açar sözlər: elmi-tədqiqat xidmətləri, biznes prosesləri, tədqiqatın nəticələrinin biznesə tətbiqi, biznes-innovasiyalar, biznes proseslərin səmərəliliyi.***

## *Giriş*

Elmi-tədqiqatın təşkili və nəticələrin əldə edilməsi prosesləri nə qədər mürəkkəb və spesifik xarakter daşıyırsa, bu nəticələrin istehsal və xidmət sahələrinə tətbiq edilməsi, biznes proseslərində istifadəsinin təşkili və son nəticədə səmərəliliyinin əldə edilməsi bir o qədər mürəkkəb məsələlərdir. Təsadüfi deyildir ki, elmi-tədqiqatların son nəticələrinin tətbiqi prosesləri dünya təcrübəsində ən mürəkkəb problemlərdən hesab olunur və bu istiqamətdə dünyanın elm-texnoloji cəhətdən inkişaf etmiş ölkələrində axtarışlar müasir dövrdə də intensiv şəkildə davam etməkdədir. Ölkəmizdə də bu problemlər öyrənilməmiş və ya dərindən öyrənilməmiş səviyyədə qalmaqdadır. Etiraf etmək lazımdır ki, Azərbaycanda elmi-tədqiqatların nəticələrinin elmi-tədqiqat xidmətləri formasında elmi-praktiki məhsula, başqa sözlə, konkret biznes fəaliyyəti prosesinə çevirməkdə hələ də ciddi problemlər qalmaqdadır. Birincisi, elmi-tədqiqat fəaliyyətinin və bununla bağlı proseslərin lazımi səviyyədə maliyyələşdirilməsi mexanizmləri həll edilməmişdir. Sonra, elmi-tədqiqat və biznes subyektləri arasında, daha açıq desək, universitetlərlə biznes-subyektləri arasında sıx əməkdaşlığın formalaşdırılması və inkişaf etdirirlməsi məsələri ölkəmizdə hələ başlanğıc mərhələsindədir. Amma, bu proseslər xeyli azdır və əksər universitetlərdə həmin istiqamətlərdə əməli fəaliyyətin olması barəsində məlumatlar da məhduddur. Bazar iqtisadiyyatına keçid digər ictimai elmlərdə olduğu kimi, iqtisad elmində də köklü dəyişiklikləri tələb edir və bu dəyişikliklər həm aparılan tədqiqatlara, həm də iqtisadçı kadr hazırlığı prosesinə yanaşmada özünü göstərir. Ölkədə həyata keçirilən iqtisadi islahatların, onların nəticələrinin elmi təhlillərin aparılması, ilk növbədə, iqtisadçıların

işidir [4]. İqtisadi proseslər dinamikliyini artırdıqca, elmi-tədqiqat xidmətlərinin biznes proseslərinə daha geniş şəkildə tətbiqi vacib şərtlərdən biri kimi ortaya çıxır [11]. Buna görə də, elmi-tədqiqatların nəticələrinin əsaslandırılmış formada istehsal proseslərinə, biznes sahələrinə çevik tətbiqi mexanizmlərinin yaradılması və onlardan səmərəli istifadə olunması tədbirləri görülməlidir.

**Elmi-tədqiqat sahəsində biznes proseslərinin səmərəli təşkili üzrə dünya təcrübəsi**

Biznes proseslərinin səmərəli təşkili bütün fəaliyyət istiqamətləri, o cümlədən elmi-tədqiqat sahəsi üçün də xüsusi önəm kəsb edir. Belə ki, elmi-tədqiqat xidmətlərinin son məhsul kimi formalaşdırılması məqsədilə, onların təyinatı üzrə tətbiq proseslərinə qədər maksimum operativ çatdırılması və son məhsulun alınması üçün sınaqların keçirilməsi, istehsal proseslərinin təşkil olunması, bazarların öyrənilməsi, risklərin dəyərləndirilməsi, marketinq araşdırılmalarının aparılması və s. bu kimi tədbirlərin görülməsi vacib şərtlərdəndir. Ümumilikdə götürdükdə elm və texnologiyalar nöqteyi-nəzərindən yüksək səviyyədə inkişaf etmiş ölkələrdə bu məqsədlər üçün birbaşa investisiyalar yatırılır və böyük məbləğdə maliyyə resursları ayrılır, qrantlar təsis olunur və digər geniş miqyaslı tədbirlər görülür.

Bu qeyd olunanlar nəzərə alınmaqla, dünya təcrübəsindən yanaşdıqda, görmək mümkündür ki, təsərrüfat və xidmət müəssisələrində biznes proseslərinin modelləşdirilməsinə böyük üstünlük verilir [7]. Buna görə də, hesab edirik ki, analoji yanaşmalar elm və təhsildə də olmalıdır, bu sahələrin kommersiyalaşdırılması, biznes strukturlarının təşkil olunması, ölkə iqtisadiyyatının, elminin və təhsilinin inkişaf xüsusiyyətlərinə adaptivliyi ilə diqqət çəkən biznes proseslərinin tətbiqi istiqamətində fəallıq təmin olunmalıdır. Tətbiqi tədqiqatlar yeni məhsulların yaradılmasına, müəssisədə artıq istehsal olunan məhsulların təkmilləşdirilməsinə yönəldilmişdir. Onlar həmçinin yeni və ya təkmilləşdirilmiş məhsulların istehsalının əsas üsullarının müəyyən edilməsi, məhsulun keyfiyyətinə nəzarət vasitələrinin işlənib hazırlanması və tətbiqi, innovativ biznes proseslərinin avtomatlaşdırılması və mexanikləşdirilməsinin inkişafı ilə bağlı bu və digər işlərin həyata keçirilməsini əhatə edir. Tətbiqi tədqiqatların nəticələri texniki sənədlər, prototiplər, modellər və digər nəticələr şəklində ifadə olunur ki, bu da sonradan müəssisələrin təcrübəsinə yeni elmi ideyaların daxil edilməsi üçün əsas olur. Beləliklə, tətbiqi tədqiqatlar zamanı istifadə üçün ən real olan və eksperimental layihələndirmə işlərində daha da inkişaf etdiriləcək elmi nəticələr kompleksi formalaşır. Bu işlərin yerinə yetirilməsi gedişində tətbiqi tədqiqat prosesində müəyyən edilmiş imkanlar əsasında texniki problemlər həll edilir. Təkmilləşdirmə işləri texniki və işçi layihələrin formalaşdırılmasına, yeni məhsulların prototiplərinin istehsalına yönəldilmişdir, yəni inkişaf işləri əvvəllər tamamlanmış tədqiqat işlərinin nəticələrinin materiallaşdırılması ilə əlaqələndirilir. Bu işlər istənilən sənaye müəssisəsinin fəaliyyətinin tərkib hissəsidir. Onlar elmi-tədqiqat işlərinin yekun mərhələsi kimi çıxış edir və sırf elmi fəaliyyətdən sənaye istehsalı şəraitinə keçidi xarakterizə edir. Tədqiqat və təcrübə-konstruktor işlərinin ayrılmaz şəkildə bağlı olduğunu nəzərə alaraq, onların bir iştirakçı tərəfindən aparılması məqsədəuyğundur.

Qeyd edək ki, biznes-proseslərin optimal olaraq təşkil edilməsi və bununla bağlı sistemli şəkildə tədbirlərin görülməsi vacib şərtlərdəndir. Bunun üçün kompleks tədbirlərin görülməsi və bir-birilə bağlı əməliyyatların həyata keçirilməsi, istehsal, elm və menecment heyətinin formalaşdırılması tələb olunur. Eyni zamanda, hər hansı bir elmi-tədqiqat fəaliyyətinin nəticəsinin tətbiq edilməsi proseslərində biznes-prosesin təşkili üçün müxtəlif mərhələlər keçmək, resursları formalaşdırmaq, köməkçi materialları təmin etmək, istehsal qurğularını inşa etmək və sınaqdan çıxarmaq lazım gəlir. Ümumilikdə, biznes proseslərinin təsnifatlaşdırılması baxımından, növbəti proseslər daha çox diqqət çəkirlər: 1) əsas proseslər; 2) yardımçı proseslər; 3) köməkçi proseslər; 4) təminedici proseslər; 5) idarəetmə prosesləri və 6) inkişaf prosesləri [15]. Digər tərəfdən, bu proseslərin hər birinin özünəməxsus xüsusiyyətləri və özəllikləri vardır. Yüksək nəticələr əldə olunması üçün bunların mütləq şəkildə öyrənilməsi və dəyərləndirilməsi vacibdir. Qeyd olunan proseslər və digər yanaşmalar nəzərə alınmaqla, biznes proseslərinin əhəmiyyətli səviyyədə modelləşdirilməsi, qarşıya qoyulmuş strateji məqsədlərə çatmaq üçün fəaliyyət strategiyasının və üslublarının düzgün

seçilməsi, resursların yaxın, orta və uzunmüddətli dövr üçün balanslaşdırılması və proqnozlaşdırılması təmin edilməlidir. Biznes proseslərinin bir çox mühüm komponentlərinin, o cümlədən giriş və çıxış komponentlərinin, aparıcı göstəricilərin, məqsəd və sənədləşdirmələrlə bağlı məsələlərin hər bir detalına xüsusi diqqət yetirilməlidir [13]. Eyni zamanda, biznes-proseslərin təşkili və bununla bağlı tədbirlərin görülməsi zamanı əldə edilmiş elmi-tədqiqat nəticələrinin proqnozlaşdırılan gözləntiləri və onlarla bağlı hesabatlardakı materiallar öyrənilərək dəyərləndirilməlidir. Təəssüf ki, müasir dövrdə əksər dünya ölkələrində fəaliyyət göstərən elm və texnologiyalar mərkəzlərində və universitetlərdə yüksək məhsuldarlığa malik biznes modelləri o qədər də inkişaf etməyib və tətbiq olunan biznes proseslərin kifayət qədər təkmilləşdirilməsinə ehtiyac vardır. Bir çox universitetlər isə ənənəvi stereotiplərdən və vərdişlərdən çıxmaqda xeyli çətinlik çəkirlər, yeni texnologiyaların mənimsənilməsində gecikirlər, texnoloji parkların yaradılması, elm və sənaye müəssisələrinin nümayəndələrinin fəaliyyətinin daha səmərəli şəkildə təmin olunmasında səmərəliliyə nail ola bilmirlər [14].

Universitetlərdə, elmi-tədqiqatyönlü müəssisələrdə və mərkəzlərdə əldə olunan elmi nəticələrin biznes proseslərinin vasitəsilə reallaşdırılması və bununla bağlı investisiya cəlbediciliyinin artırılması tədbirlərinə daha çox diqqətin yönəldilməsinin vacibliyini qeyd etmək istərdik. Burada əsas yanaşma, tədqiqatçıların məhsuldar şəkildə fəaliyyət göstərməsi və əldə etdikləri elmi nəticələrin istehsal və xidmət proseslərində tətbiqi üçün müvafiq şəraitin olması, bu proseslərə peşəkar menecerlərin və potensial investorların cəlb olunmasından ibarətdir və bunlar son nəticədə həlledici əhəmiyyət kəsb edir. Bu tədbirlər sırasında daha çox diqqət çəkənləri qeyd etmək istərdik: 1) məqsədli elm-tədqiqat qrantlarının təşkil olunması və bununla bağlı müsabiqələrin şəffaflığının təmin edilməsi; 2) potensial və istedadlı tədqiqatçıların seçilməsi, müxtəlif perspektivli layihələr üzrə ixtisaslaşdırılması və peşəkar tədqiqatçı qruplarının, komandasının formalaşdırılması; 3) mühüm və prioritet problemlər üzrə ciddi elmi müzakirələrin və forumların keçirilməsi; 4) tədqiqat materiallarının sınaqdan keçirilməsi və tətbiq üçün hazırlanması istiqamətində zəruri tədbirlərin görülməsi və müvafiq şəraitin yaradılması; 5) maraqlı tərəflər, o cümlədən sənaye müəssisələri, maliyyə-kredit təşkilatları və investisiya birlikləri, holdinqləri ilə əlaqələrin gücləndirilməsi və birgə layihələrin həyata keçirilməsi və s. Bundan əlavə, biznes proseslərinin idarəetmə həlqələrinin işlək vəziyyətə gətirilməsi, nəzarət sisteminin formalaşdırılması, elmi-tədqiqat nəticələrinin adaptivlik səviyyəsinin qiymətləndirilməsi və verə biləcək praktiki töhfələrin əhəmiyyətli şəkildə və obyektiv olaraq qiymətləndirilməsi tələb olunur. Biznes proseslərinin adekvatlığı və optimallığını müəyyənləşdirmək üçün bir qrup göstəricilər daha çox diqqət çəkirlər və ön plana çıxırlar: 1) giriş və çıxışların sayı, burada əsas meyar daha az bu proseslərin təkrarlanması ilə ölçülür, mühəndislik və iqtisadi səmərəlilik baxımından biznes prosesin vahid və ideal vəziyyətə gətirilmiş girişinin olması daha məqsədəuyğundur və bu halda çıxış mənbələri daha optimal şəkildə 2 və 3 çıxışdan ibarət olur; 2) biznes prosesə daxil olan prosedurların sayının optimallığı məsələləri və daha çox yüksək səviyyədə qəbul olunan meyar kimi 7-dən 11-ə qədər olan prosedurlar əsas götürülür, yəni inkişaf etdirilir; 3) prosesin idarə edilməsi üçün təhlükə yarada biləcək mümkün istisnaların sayı və 4) cəlb olunan işçi və bölmələrin sayı [10]. Əlbəttə, biz hesab edirik ki, bu göstəricilərin sayını artırmaq da olar, məsələn biznes prosesləri zamanı qeyri-təkmil özünü göstərən elementlərin, yaxud reqlamentdəki qüsurların sayı, risklər və s. göstəriciləri də nəzərə almaq olar.

Biznes proseslərin optimallığının yüksəldilməsi və bununla əlaqədar olaraq investisiya cəlbediciliyinin tələb olunan şərtlər səviyyəsinə qaldırılması vacib məsələlər kimi xarakterizə olunurlar. Bu həm də elmi-tədqiqatın nəticələrini istehsal proseslərinə tətbiq edən sahibkarlıq və ya biznes subyektinin rəqabətqabiliyyətlilik səviyyəsinin göstəricisi kimi də qəbul oluna bilər. Belə olduğu halda, biznes prosesləri investorlar üçün daha cəlbedici görünər və investisiyaların yatırılmasında lazım olan qərarlar qəbul edilər, investorlar daha çox maraqlı tərəf kimi çıxış edərlər. Biznes subyektlərinin fəaliyyətinin yeni çağırışlara uyğun şəkildə modelləşdirilməsi, məhz onların rəqabətqabiliyyətlilik səviyyəsindən və manevrlilik potensiallarından bilavasitə asılıdır [9]. Bunlarla bərabər, elmi-tədqiqat müəssisələrində infrastrukturun gücləndirilməsi, maddi-texniki baza-

nın səviyyəsinin qaldırılması, zəruri avadanlıqların alınması, xüsusilə laborotoriya – sınaq cihazlarının alınması, eksperimentlər və sınaqlar üçün müvafiq şəraitin yaradılması daha çox ön plana çıxarılmalı və ardıcıl şəkildə baxılmalıdır.

Elmi-tədqiqat nəticələrinin praktiki tətbiqi ilə bağlı məsələlərdə həlledici rol oynayan istehsal tsiklinin təşkili ilə əlaqədar biznes proseslərin bir qrup növü daha çox diqqət çəkir. Məsələn, əsas biznes proseslərə diqqət yetirsək, burada müəssisənin gəlirləri formalaşır, mal istehsalı və xidmətlərin göstərilməsi ilə bağlı məqsədli proseslər gedir. Digər tərəfdən, dolayı biznes proseslərinin xüsusiyyətlərinə baxsaq, görə bilərik ki, bu halda istehsal olunan mal və göstərilən xidmətlərlə bağlı istehsal tsiklində əlavə gəlirin formalaşdırılması daha çox diqqət mərkəzində olur. Eyni zamanda, köməkçi biznes proseslər nöqteyi-nəzərindən, zəruri resurslarla və mal-materiallarla təminat problemlərini, fəaliyyətin təşkili ilə bağlı məsələləri özündə ehtiva edən bir prosesin şahidi oluruq. Bunlarla bərabər, biznes proseslərin başqa bir növü, yəni təminatedici proseslərin mahiyyətinə gəlincə isə, burada istehsal və xidmət infrastrukturunun gücləndirilməsi və dəstəklənməsi ilə bağlı məsələlər daha çox ön plana çıxır. İnkişaf biznes prosesləri isə özündə mal və xidmətlərin təkmilləşdirilməsini, texnologiyaların inkişaf etdirilməsini nəzərdə tutur. Sahibkar biznes proseslərinin əsasında isə, ilk növbədə mal və xidmətlər üzrə bütöv tsiklin idarə olunması məsələləri yer almışdır və bununla bağlı proseslər reallaşdırılır. Nəhayət, reqlament biznes prosesi isə – istehsal və xidmətlərlə bağlı tsikldə qaydaları və tələbləri özündə birləşdirir [6]. Bunlarla yanaşı, son dövrlərdə biznes proseslərin yüksək texnologiyalara, o cümlədən "ağıllı" texnologiyala söykənmiş növlərinin formalaşması və daha müasir fəaliyyət modellərinin yaranması diqqət çəkir. Bütün bu proseslərin əsasında informasiya-kommunikasiya texnologiyaları ilə bağlı fəaliyyət mexanizmləri yer almaqdadır və üstünlük təşkil etməkdədir [12]. Bu proseslərin təkmilləşdirilməsi və daha intensiv texnoloji irəliləyişlərin təmin edilməsi hazırkı dövrdə daha çox ciddi önəm kəsb etməkdədir. Eyni zamanda, innovasiyayönlü inkişafın yeni prioritetləri və xüsusiyyətləri hesabına elmi-tədqiqat müəssisələrində biznes-proseslərinin maksimum təkmilləşdirilməsi, mövcud mexanizmlərin və praktiki fəaliyyət alətlərinin yenilənməsi işləri daha sürətli xarakter almaqdadır [8.]. Analoji yanaşmalar, müasir dövrdə elmi-tədqiqat müəssisələrinin fəaliyyətində səmərəlilik problemlərinin həll olunmasında daha çox diqqət yetirilməsi tələb olunan məsələlərdəndir. Elmi-tədqiqat müəssisələrində ənənəvi olaraq planlaşdırılan və həyata keçirilən elmi-tədqiqat layihələrinin səmərəliliyi ilə qlobal dövrün, yeni inkişaf səmtlərinin tələbləri arasında xeyli fərqlər vardır və bu amillər uzun illər ərzində formalaşmış elmi-tədqiqat yanaşmalarının dərindən təkmilləşdirilməsini və yaxud əsasən yenilənməsini zəruri etmişdir.

**Azərbaycanda elmi-tədqiqat müəssisələrində biznes proseslərinin investisiya cəlbediciliyinin yüksəldilməsi problemləri və perspektivləri**

Məlumdur ki, Azərbaycan ənənəvi olaraq innovativ inkişaf və iqtisadi artımın innovativ modelinə keçidin təmin edilməsi üçün zəruri olan əhəmiyyətli kadr, elmi-tədqiqat, ixtiraçılıq və texniki potensiala malikdir. Lakin Azərbaycanda elmi-tədqiqat işlərinin maliyyələşdirilməsi problemi vardır ki, bu təkcə elmi fəaliyyətlə birbaşa əlaqəli olan təşkilatların tədqiqatçıları və ya işçiləri üçün deyil, həm də istənilən digər müasir təşkilatlar üçün aktualdır. Azərbaycanda elmi-tədqiqatların maliyyələşdirilməsi problemlərindən biri dövlət büdcəsindən xərclərin üstünlük təşkil etməsidir. Təbii ki, bir çox ölkələrdə elmi-tədqiqat işlərinə dövlət dəstəyi mühüm yer tutur. Lakin müasir dünyada iqtisadiyyatın özəl sektoru da bu sahəyə böyük maraq göstərməlidir. Müəyyən edilmiş problemlərin həlli üçün innovativ biznes proseslərinin tətbiqi istiqamətlərini, müxtəlif maliyyələşdirmə mexanizmlərinin optimal nisbətini, habelə dövlət-özəl tərəfdaşlığından istifadə zamanı mümkün olan büdcə və büdcədənkənar maliyyələşdirmənin optimal birləşməsini tapmaq lazımdır.

Elmi-tədqiqat müəssisələrində, həmçinin universitetlərdə elmi-tədqiqatyönlü və bu sahəyə ciddi marağı olan perspektivli kadrların hazırlanması məsələlərinə xüsusi diqqət yetirilməlidir. Məsələn, universitetlərdə doktorantura yolu ilə ali təhsilin ən yüksək səviyyəsi olmaqla, elmi və elmi-pedaqoji kadrların hazırlanmasını, ixtisas və elmi dərəcələrin yüksəldilməsini təmin etmək üçün güclü potensial vardır. Həmin amillər baxımından, bu səviyyədə gələcək perspektivli elmi tədqi-

qatçıların hazırlanması və elmi-tədqiqat xidmətlərinin formalaşdırılmasında kifayət qədər vacib olan elmi mütəxəssislərin yetişdirilməsi təmin edilə bilər. Amma bunun üçün maraqlı tərəflərlə, o cümlədən elmi-tədqiqat müəssisələri və mərkəzləri ilə, şirkət və sənaye müəssisələri ilə sıx əməkdaşlıq əlaqələri olmalıdır. Bundan əlavə, elmi tədqiqatçıların formalaşması və inkişafı proseslərinə xüsusi diqqət yetirilməli, elmi-tədqiqat işlərinin etibarlı şəkildə maliyyələşdirilməsi problemləri həll olunmalı, gənc elmi tədqiqatçılara qrantların ayrılmasında və xarici elmi mərkəzlərdə elmi mübadilələrdə iştirak etməsində dəstək proqramları və layihələri hazırlanaraq həyata keçirilməlidir. Hesab edirik ki, gənc elmi tədqiqatçılar üçün stimullaşdırıcı elmi qrant müsabiqələri təşkil olunmalı və onların məişət problemlərinin həll edilməsi üçün dövlət tərəfindən xüsusi dəstək proqramı işlənilməlidir.

Qeyd edək ki, elm sahəsi üzrə fəaliyyətin təşkilində müasir bazar iqtisadiyyatı şəraitində tələb olunan elmi-tədqiqat xidmətlərinin reallaşdırılmasına imkan verən innovatik infrastrukturun təşkilinə xüsusi diqqət yetirilməsi vacib şərtlərdəndir. Bunlarla bərabər, ölkədə fəaliyyət göstərən universitetlərlə akademik qrumların birgə əməkdaşlığı təmin edilməli, bu cür qurumların müvafiq tədqiqat institutları və innovasiyayönlü istehsal müəssisələrinin, biznes subyektlərinin inteqrativ fəaliyyətinin təşkili istiqamətində daha təsirli tədbirlərin görülməsi addımları atılmalıdır. Məsələn, AMEA-nın beynəlxalq səviyyədə, ilk növbədə elmi-texniki yeniliklərin mübadiləsi və transferi istiqamətində əməkdaşlıq əlaqələri və tərəfdaşlıq münasibətləri ölkəmizin iqtisadi inkişaf dinamikası və qarşıya qoyduğu strateji hədəfləri ilə uzlaşmır və bu istiqamətdə fəaliyyətin müasir çağırışlar səviyyəsinə qaldırılması tələb olunur. Təəssüf ki, bu qurumda aparılan elmi-tədqiqat işlərinin hazırkı səviyyəsi elmi ictimaiyyət və cəmiyyət tərəfindən birmənalı qəbul olunmur. Bu qurumda fəaliyyət göstərən tədqiqatçıların əksər hissəsi yaşlı nəsildəndir və yenə təəssüf hissi ilə qeyd etmək lazımdır ki, onların çalışdıqları elmi-tədqiqat institutlarında əsas mübarizə yeni kəşflərin ortaya qoyulması və yaxud daha dərin tədqiqatların aparılması uğrunda yox, fəxri adların, dövlət mükafatlarının, yaxud dövlət tərəfindən yaradılmış elmin inkişafı üzrə müxtəlif qurumlardan elmi layihələrin, başqa sözlə hazır “payların” alınması uğrunda gedir. Yəni, elmi tədqiqatçılar güclü rəqabət mühitindən, elmi-tədqiqatlarla məşğul olmaq imkanından demək olar ki, məhrumdurlar. Eyni zamanda, dövlət tərəfindən elmi-tədqiqatlara ayrılan vəsaitlər də çox azdır və demək olar ki, bu sahəyə yönəldilən vəsaitlər əsas etibarı ilə əməkhaqqı və onunla bağlı müxtəlif fondlara, o cümlədən sosial fonda yönəldilən ayırmalara sərf olunur. Həm də bizə görə, digər akademik müəssisələrin və universitetlərin fəaliyyətlərində də bu məsələlər yenidən baxılmalı, elmi-tədqiqat müəssisələrinə gənc alimlərin intensiv axınına imkan verən elmi fəaliyyət mühitinin yaradılması vacibdir. Başqa sözlə, elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması, bununla əlaqədar olaraq istehsal proseslərində əldə olunan nəticələrin daha geniş şəkildə tətbiq edilməsi məqsədilə yüksək texnologiyalar əsaslı parkların yaradılması prosesləri sürətləndirilməlidir.

Azərbaycanda innovatik infrastrukturun inkişafına dövlət tərəfindən ciddi önəm verilməsini qeyd etmək olar və son illərdə texnoparkların, sənaye parklarının, sənaye məhəllələrinin, aqroparkların, yüksək texnologiyalar parklarının yaradılması proseslərini buna misal göstərmək olar və əvvəldə bildirdiyimiz kimi bu proseslərin intensivləşdirilməsinə ehtiyac vardır. Belə ki, məhz həmin istehsal infrastrukturu potensialı hesabına elmi-tədqiqat işlərinin kommersiyalaşdırılması proseslərinin genişləndirilməsi mümkündür. Artıq bir çox elm və innovasiyayönlü infrastruktur obyektləri və müəssisələri istismara verilmişdir və hazırda mühüm vəzifələr kimi bu infrastrukturdan istifadənin səmərəliliyinin təmin olunması, universitetlərin və elmi-tədqiqat müəssisələrinin həmin yüksək texnologiyalar əsaslı iqtisadi mexanizmlərdən daha məhsuldar bəhrələnməsi aktual olaraq qalmaqdadır. Hesab edirik ki, universitetlər bu kimi innovatik qurumlarla və iqtisadi subyektlərlə inteqrativ əlaqə hesabına elmi-tədqiqat xidmətlərinin formalaşdırılmasında, elm və texnologiyalar bazarlarına çıxmaqda fəal iştirak etmək potensialına malikdirlər və bu potensialdan məhsuldar istifadə olunması tələb olunur. Eyni zamanda, elmi-tədqiqat işlərinin genişləndirilməsi proseslərində klaster institutundan səmərəli istifadə etməklə, daha çox maraqlı tərəflərin birgə fəaliyyətini təmin etmək və elmi-tədqiqat işlərinin kommersiyalaşdırılmasında yeni imkanlar əldə

etmək mümkündür. Bu kimi yanaşmalar hesabına elmi-tədqiqat işlərinə marağın artırılması, əldə olunan nəticələrin daha az müddət ərzində hazır məhsula və xidmətə çevrilməsini təmin etmək olar. Amma, bunun üçün innovasiya proseslərinə, elmi-tədqiqatların təşkili və tənzimlənməsi tədbirlərinə strateji yanaşmalar ön plana çıxarılmalıdır. Bütün bunlar elmi-tədqiqat müəssisələrində investisiya cəlbediciliyini artırmağa imkan verər və biznes-proseslərin səmərəliliyinin artırılmasına əlavə potensial formalaşdırar.

Artıq ölkəmizdə çoxfunksiyalı iqtisadi mexanizmlərin yaradılması, o cümlədən, texnoparkların və sənaye parklarının təşkili elmi-tədqiqat xidmətlərinin geniş spektrinin formalaşdırılması və biznes proseslərinə çevrilməsi üçün əlverişli zəmin yaratmışdır. Amma, bunun üçün innovasiya texnoparklarında tədqiqatların və proseslərin effektiv təşkili üçün onların informasiya təminatının işlənməsi müasir dövr üçün ən zəruri və aktual məsələlərdən hesab olunur [1]. Bu, kompleks şəkildə innovasiya texnoparklarının fəaliyyətinin effektivliyinin yüksəldilməsi istiqamətində informasiya təminatı sisteminin arxitektur-texnoloji modelinin işlənməsini vacib məsələ kimi qarşıya qoyur [5]. Həmin amillər baxımından elmi-texniki aspektlər, təşkilati-iqtisadi amillər və hüquqi əsaslar nəzərə alınmaqla, biznes proseslərinin maksimum səmərəli təşkil edilməsi istiqamətində məqsədli tədbirlər həyata keçirilməlidir. Belə ki, müasir biznes sahəsində elmi və texniki nailiyyətlərin düzgün tətbiqini nəzərdə tutan innovasiya sistemi sürətlə inkişaf edir [3]. Analoji proseslərin ölkəmizdə də sürətləndirilməsi vacibdir. Elmi-tədqiqatların nəticələrinin rəqabətqabiliyyətli xidmətlərə çevrilərək, müxtəlif istiqamətlərdə sahibkarlıq fəaliyyətində səmərəli istifadə olunması mexanizmləri və müvafiq biznes mühiti yaradılmalıdır. Ümumilikdə baxdıqda, elmin və elmi-tədqiqatların əsas vəzifələrindən biri – ölkədəki inkişaf problemlərinin və inkişaf modelinin sistemli şəkildə tədqiqindən ibarətdir [2]. Qlobal dəyişikliklər dərinləşdikcə bu qeyd olunan məsələlərə yanaşmalar da dəyişməkdədir və elmi-tədqiqatların təşkilində daha məhsuldar şəraitin yaradılması, resurs təminatının yüksək səviyyədə təmin edilməsi, alim və tədqiqatçıların diqqətinin isə aparılan tədqiqatların səmərəliliyinin artırılmasına yönəldilməsi ön plana çıxmalıdır .

Son illərdə ölkəmizdə elmi-tədqiqat müəssisələrinin fəaliyyətinin gücləndirilməsi üçün geniş perspektivlər formalaşmış və əlverişli mühit yaranmışdır. Artıq Azərbaycanın 3 rabitə peyki vardır və yüksək texnologiyaların imkanlarından istifadə olunmasında real, həm də əlçatan rəqəmsal resurslar vardır. Eyni zamanda, 30 ilə yaxın işğal altında olan torpaqlarımızın azad edilməsi və bu ərazilərin dirçəldilməsi istiqamətində irimiqyaslı layihələrin reallaşdırılmasına başlanılması, xüsusilə yüksək texnologiyalardan, o cümlədən “ağıllı” texnologiyalardan, yaşıl iqtisadiyyat yanaşmalarından istifadəyə üstünlük verilməsi yeni elmi-tədqiqatların aparılmasını zəruri edir. Bundan əlavə, yeni yaradılmış Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının kifayət qədər yeraltı və yerüstü sərvətləri vardır. Bu iqtisadi rayonlarda elmi-tədqiqat müəssisələrinin yaradılması, müvəqqəti və daimi elmi yaradıcılıq kollektivlərinin formalaşdırılması, lazım gəldikdə səyyar elmi ekspedisiyaların təşkili maksimum aktuallıq səviyyəsinə qalxmışdır.

### *Nəticə*

Yaxın illərdə bu amillər nəzərə alınmaqla, Azərbaycanda elmi-tədqiqat müəsissələrində və elmi mühitdə, həmçinin universitetlərdə elmi-tədqiqat işlərinin genişləndirilməsi və elmi xidmətlərin strukturunun təkmilləşdirilməsi proseslərinin şahidi olacağıq. Bunlarla əlaqədar olaraq, elmi-tədqiqat xidmətlərinin genişləndirilməsində biznes proseslərinin rolunun artırılması mühüm zərurət kimi tələb olunacaqdır və bununla bağlı bir sıra problemlərin sistemli formada həlli istiqamətində təsirli tədbirlərin görülməsi vacibdir:

– yeni çağırışlar əsas götürülməklə ölkəmizdə elmi-tədqiqat müəssisələrinin fəaliyyətinin təşkilinə və ümumilikdə elm sahəsində investisiya cəlbediciliyinin artırılmasına konseptual yanaşmalar formalaşdırılmalı və prioritetlik səviyyəsi yüksəldilməlidir;

– elmi-tədqiqatların nəticələrinin kommersiyalaşdırılması mexanizmlərinin və bununla bağlı

qanunvericilik bazasının, xüsusilə innovasiya fəaliyyətini özündə ehtiva edən ölkə qanununun işlənməsi və mövcud qanunların maksimum təkmilləşdirilməsi tələb olunur;

– ölkəmizdə fəaliyyət göstərən elmi-tədqiqat müəssisələrində formalaşan xidmətlərin strukturunun genişləndirilməsinə və brendləşdirilməsinə xüsusi önəm verilməli, məqsədli elmi qrantlar təsis olunmalı və perspektivli tədqiqat layihələrinin maliyyələşdirilməsi mexanizmləri işlənilməli, vergi güzəştləri tətbiq olunmalı, həmçinin digər dövlət dəstəyi alətləri hazırlanmalıdır və s.

## ƏDƏBİYYAT


1. Cavadov, X.R. Milli İnnovasiya Sistemlərinin yaradılması üzrə beynəlxalq təcrübə və onun Azərbaycanda tətbiqinin genişləndirilməsi imkanları // Azərbaycanın vergi jurnalı. – 2015. - № 5 (125). -s.177-194.
2. “Elm haqqında” Azərbaycan Respublikasının Qanunu. Bakı şəhəri, 14 iyun 2016-cı il, 33 s.
3. Hacıyeva T.X. Azərbaycanda biznes inkubatorların formalaşması və inkişafı problemləri. İ.ü.f.d. dis-nın Avt-tı. Bakı, 2013, 23 s.
4. Muradov, Ə.C. Heydər Əliyev və müasir universitet modeli. - http://www.azerbaijan-news.az.
5. Şahverdiyeva, R.O. İnnovasiya texnoparklarının fəaliyyətinin informasiya təminatı sisteminin arxitektur-texnoloji modelinin işlənilməsi // İnformasiya cəmiyyəti problemləri, 2019, №2, 82–93.
6. Бурцев, Д.С., Гаврилюк Е.С., Изотова А.Г., Литвинова Н.А., Реинжиниринг производственных процессов – СПб: Университет ИТМО, 2021. – 50 с.
7. Грищенко Н.В. Бизнес-модель образовательной организации: постановка задачи - http://ljournal.ru/article/lj-30-06-2017-20.pdf.
8. Кауфман, Н.Ю. Реинжиниринг бизнес-процессов предприятий в контексте инновационного развития / Н.Ю. Кауфман. // Молодой ученый. – 2016. – № 25 (129). – с. 292-295.
9. Коваленко, Б.Б., Бизнес-моделирование - инструмент конкурентоспособности предпринимательской организации // Научный журнал НИУ ИТМО. Серия: Экономика и экологический менеджмент - 2017. - № 4(31). - с. 110-118.
10. Кольцова, О.В., Меньщикова Вера Ивановна Бизнес-процесс как основа процессного подхода в управлении // Вестник ТГУ. 2008. №5. – с. 113-118.
11. Паничкина, М.В. Совершенствование бизнес-процессов вуза в системе взаимодействия с региональным бизнес-сообществом // Известия ЮФУ. Технические науки. 2006. №17. с. 142-147.
12. Полканов, Е.И., Ефимушкин И.В. Современные методы оптимизации бизнес-процессов разработки и внедрения новых инфокоммуникационных услуг. http://svetets.ru.
13. Силич, В.А., Силич М.П. С-362 Моделирование и анализ бизнес-процессов: учеб. пособие / В.А. Силич, М.П. Силич. – Томск : Изд-во Томск. гос. ун-та систем управления и радиоэлектроники, 2011. – 212 с.
14. Ускенбаева, Р.К., Молдагулова А.Н., Сатыбалдиева Р.Ж., Касымова А.Б., Кальпеева Ж.Б. Архитектура и классификация бизнес-процессов университета в новых условиях // Фундаментальные исследования. – 2020. – № 8. – с. 78-85.
15. Что такое бизнес-процессы: основные понятия и определения. http://www.elitarium.ru/biznes-process-organizacija-menedzher-upravlenie-resursy-predprijatie/.

*Лейла Фахраддин кызы Ахмедова*
*Докторант Азербайджанского*
*Университета Кооперации*
*E-mail: leyla.ehmedova.aku@gmail.com*

## Вопросы повышения инвестиционной привлекательности бизнес-процессов в научно-исследовательских предприятиях

*Резюме*

**Цель исследования -** заключается в определении пути повышения инвестиционной привлекательности бизнес-процессов в научно-исследовательских предприятиях. С этой целью раскрыта сущность основных проблем путей повышения инвестиционной привлекательности и барьеров, мешающих улучшению эффективности бизнес-процессов в научно-исследовательских учреждениях.

**Методология исследования -** заключается в использовании ряда экономических методов, в том числе анализа, синтеза, сравнения, обобщения и научных предположений и выводов учёных-исследователей, специализирующихся на изучении повышения инвестиционной привлекательности бизнес-процессов.

**Важность применения исследования** - заключается в определении более оптимального пути повышения инвестиционной привлекательности бизнес-процессов в научно-исследовательских предприятиях и разработке более эффективных механизмов обеспечения продуктивности бизнес-процессов.

**Результатом исследования** - является определение рационального пути повышения инвестиционной привлекательности бизнес-процессов в обеспечении эффективности научно-исследовательских предприятий.

**Оригинальность и научная новизна исследования** - оригинальность заключается в подготовке материалов статьи на основе проведённых исследований и авторских подходов. Научная новизна выражается в обосновании и определении более оптимальных и сбалансированных путей решения проблем, мешающих повышению инвестиционной привлекательности бизнес-процессов на научно-исследовательских предприятиях.

***Ключевые слова: научное-исследовательские предприятия, бизнес-процессы, инвестиционная привлекательность, повышение инвестиционной привлекательности бизнес-процессов, эффективность бизнес-процессов, перспективы обеспечения инвестиционной привлекательности в научно-исследовательских предприятиях.***

*Leyla Fahraddin Akhmedova*
*Doctoral student of Azerbaijan*
*University of Cooperation*
*E-mail: leyla.ehmedova.aku@gmail.com*

## Issues of increasing investment attractiveness of business processes in research enterprises

*Summary*

**Purpose of the study -** is to determine how to increase the investment attractiveness of business processes in research enterprises. The essence of the main problems of ways to increase investment attractiveness and barriers that prevent improving the efficiency of business processes in research institutions are analyzed for this purpose.

**Research methodology -** consists in the use of a number of economic methods, including analysis, synthesis, comparison, generalization and scientific assumptions and conclusions of research

scientists specializing in the study of increasing the investment attractiveness of business processes.

**The importance of applying** - is to determine the best way to increase the investment attractiveness of business processes in research enterprises and to develop more effective mechanisms to ensure the productivity of business processes.

**The result of the research** - is to determine a rational way to increase the investment attractiveness of business processes in ensuring the efficiency of research enterprises.

**The originality and scientific novelty** - originality consists in the preparation of the materials of the article on the basis of the scientists' approaches. Scientific novelty is expressed in substantiating and determining more optimal and balanced ways to solve problems that prevent increasing the investment attractiveness of business processes at research enterprises.

***Key words: research enterprises, business processes, investment attractiveness, increasing investment attractiveness of business processes, efficiency of business processes, prospects of ensuring investment attractiveness in research enterprises.***